**Journal of Azerbaijan Language and Education Studies**
Vol. 3 No. 2 (2026): Secundus
https://doi.org/10.69760/jales.2026002009

# Böyük Fransız Yazıçısı Aleksandr Düma Azərbaycanda

*The Great French Writer Alexandre Dumas in Azerbaijan*

[1] **Nigar Eyvazova**
*[1] 2nd Year Student, Faculty of Foreign Languages, Nakhchivan State University, Azerbaijan*

**Xülasə**

*Böyük fransız yazıçısı Alexandre Dumas 1802-ci ildə Paris yaxınlığındakı Villers-Kotterets qəsəbəsində anadan olmuşdur. 1858–1859-cu illərdə Rusiyaya səfər edən yazıçı bu səfərin nəticəsi olaraq yeddi cildlik səfərnamə qələmə almışdır. Həmin cildlərdən biri olan "Qafqaz" əsərində müəllifin Azərbaycana səfəri ətraflı şəkildə təsvir edilir. Məqalədə Dümanın Quba, Bakı, Şamaxı və Şəki şəhərləri ilə bağlı müşahidələri, azərbaycanlılara münasibəti, şairə Khurshidbanu Natavan ilə tanışlığı, eləcə də Azərbaycan xalqının qonaqpərvərliyi öz əksini tapmışdır. Tədqiqat "Qafqaz" əsərinin etnoqrafik və mədəni-tarixi əhəmiyyətini üzə çıxarır.*

**Açar sözlər:** *"Qafqaz" səfərnaməsi; məişət mərasimləri; regional xüsusiyyətlər; etnoqrafik vahidlər; mədəni irs.*

**Abstract**

*The great French writer Alexandre Dumas was born in 1802 in Villers-Cotterêts, near Paris. During his travels to Russia in 1858–1859, he wrote a seven-volume travelogue, one volume of which is entitled Le Caucase, devoted to his journey through Azerbaijan. This article examines Dumas's visit to Azerbaijan, his observations in cities such as Quba, Baku, Shamakhi, and Sheki, his representation of the Azerbaijani people (referred to as "Tatars" in the travelogue), his celebrated encounter with the poetess Khurshidbanu Natavan, and his vivid accounts of Azerbaijani hospitality, landscape, and culture. The study highlights the ethnographic and cultural-historical significance of Le Caucase as a testimony to nineteenth-century Azerbaijan in the eyes of a leading European intellectual.*

**Keywords:** *Caucasus travelogue; cultural heritage; ethnographic record; Dumas; Azerbaijan; nineteenth-century French literature*

## Giriş

XIX əsr Avropa səyyahlarının Şərqə marağı yalnız ekzotik təəssüratlarla məhdudlaşmamış, eyni zamanda regionların tarixi, mədəniyyəti və məişəti haqqında mühüm məlumatların formalaşmasına da təsir göstərmişdir. Bu baxımdan görkəmli fransız yazıçısı Alexandre Dumas xüsusi yer tutur. Aleksandr Düma 1858–1859-cu illərdə Rusiya imperiyasına və Qafqaza səfər etmiş, bu səfərin nəticəsi olaraq yeddi cilddən ibarət geniş səfərnamə qələmə almışdır. Həmin cildlərdən biri olan "Qafqaz" əsərində müəllif Azərbaycanın müxtəlif bölgələrinə etdiyi səfərlərdən, burada şahidi olduğu hadisələrdən, xalqın həyat tərzindən, qonaqpərvərlik ənənələrindən və təbiətin gözəlliklərindən geniş şəkildə bəhs etmişdir (Dumas, 1859).

Dümanın qeydləri yalnız bədii təsvir xarakteri daşımır, eyni zamanda XIX əsr Azərbaycanının sosial-mədəni mənzərəsini əks etdirən mühüm tarixi və etnoqrafik mənbə kimi diqqəti cəlb edir. Yazıçı xalqın gündəlik həyatı, geyimləri, bazar mədəniyyəti, məişət mərasimləri və şəhərlərin ümumi görünüşü

*This is an open access article under the Creative Commons Attribution 4.0 International License* **ISSN 3078-6177**

haqqında ətraflı məlumat vermişdir. Xüsusilə onun müşahidələri Qafqaz regionunun Avropa oxucusuna tanıdılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Məqalənin əsas məqsədi Dümanın "Qafqaz" əsərində Azərbaycana həsr olunmuş hissələri təhlil etmək, müəllifin etnoqrafik müşahidələrini və əsərin mədəni-tarixi dəyərini araşdırmaqdır. Tədqiqat çərçivəsində XIX əsr Avropa ziyalısının baxış bucağından Azərbaycanın necə təqdim olunduğu, bölgənin məişət xüsusiyyətlərinin hansı formada təsvir edildiyi və səfərnamənin tarixi mənbə kimi əhəmiyyəti nəzərdən keçirilir. Eyni zamanda, əsərdə yer alan məlumatların Azərbaycan xalqının milli kimliyi və mədəni irsinin öyrənilməsi baxımından dəyəri vurğulanır.

## Dümanın Azərbaycana Səfəri

Aleksandr Dümanın Qafqaza səfəri Dərbənddən başlayaraq Quba, Bakı, Şamaxı və Şəki istiqamətində davam etmişdir (Məmmədov, 1970). Yazıçı səfəri boyunca gördüyü mənzərələri canlı və təsirli şəkildə təsvir etmiş, regionun həm təbii gözəlliklərinə, həm də insanların gündəlik həyatına xüsusi diqqət yetirmişdir. Maraqlı məqamlardan biri odur ki, müəllif əsərdə "azərbaycanlılar" ifadəsini işlətməmiş, dövrün Rusiya imperiyası terminologiyasına uyğun olaraq yerli əhalini "tatarlar" adlandırmışdır. Bu fakt həm dövrün siyasi reallıqlarını, həm də Avropa səyyahlarının Şərq xalqları haqqında formalaşmış təsəvvürlərini əks etdirir.

Quba şəhərinə gələn Düma burada bazar həyatını, xalq sənətkarlığını və şəhərin canlı atmosferini maraqla müşahidə etmişdir. Xüsusilə qadınların toxuduqları xalçalar, milli ornamentlər və yerli ustaların hazırladıqları xəncərlər onun diqqətini cəlb etmişdir. Müəllif bu sənət nümunələrini Şərq mədəniyyətinin incə estetik zövqünün göstəricisi kimi qiymətləndirmişdir.

Bakıda olarkən yazıçı Abşeron yarımadasının təbiətinə, Xəzər dənizinin mənzərəsinə və neft quyularına heyran qaldığını qeyd etmişdir. O dövrdə Bakının neft yataqları artıq xarici səyyahların marağına səbəb olurdu. Düma xüsusilə Suraxanıdakı Atəşgah məbədini ziyarət etmiş və burada daim yanan alovları böyük təəccüblə təsvir etmişdir. Yazıçı Atəşgahı Neapol yaxınlığındakı Vezuvi vulkanı ilə müqayisə edərək onu "əbədi yanan məşəl" adlandırmışdır (Dumas, 1859, s. 142). Bu müqayisə müəllifin Azərbaycan təbiətinə və qədim inanclarına duyduğu marağı aydın şəkildə göstərir.

Şamaxıda olarkən Düma yerli zadəganların məclislərində iştirak etmiş, burada musiqi məclisləri, şərq qonaqpərvərliyi və milli adət-ənənələrlə yaxından tanış olmuşdur. Şəkidə isə o, şəhərin memarlıq xüsusiyyətlərini, sənətkarlıq ənənələrini və ipəkçilik sənayesini yüksək qiymətləndirmişdir. Yazıçının qeydləri həmin dövrdə Azərbaycanın şəhər mədəniyyətinin inkişaf səviyyəsini göstərən mühüm mənbələrdən biri hesab edilə bilər.

## Natəvanla Görüş

Aleksandr Dümanın Azərbaycana səfərinin ən maraqlı və tarixi əhəmiyyət daşıyan məqamlarından biri onun Qarabağ xanının qızı, məşhur Azərbaycan şairəsi Khurshidbanu Natavan ilə görüşü olmuşdur. Mənbələrdə bu görüşün Şamaxıda, bəzi məlumatlarda isə Bakıda baş tutduğu qeyd edilir (Arif, 1963). Natəvanın həyat yoldaşı Xasay xan Usmiyev də həmin görüşdə iştirak etmişdir.

Bu görüş yalnız iki tanınmış şəxsiyyətin tanışlığı deyil, eyni zamanda Şərq və Qərb mədəniyyətlərinin qarşılaşmasının simvolik nümunəsi kimi qiymətləndirilə bilər. Görüş zamanı qarşılıqlı hədiyyələrin təqdim edildiyi bildirilir. Düma Natəvana fil sümüyündən hazırlanmış zərif şahmat dəsti bağışlamış, Natəvan isə yazıçıya öz əl işi olan bəzəkli pul kisəsi və müxtəlif sənət nümunələri təqdim etmişdir. Bu hədiyyələr tərəflərin bir-birinə olan hörmətinin və mədəni yaxınlığının ifadəsi idi.

Mənbələrdə qeyd edilir ki, Natəvan şahmat oyununda olduqca bacarıqlı olmuşdur. Dümanın onunla şahmat oynaması sıradan bir əyləncə deyil, intellektual və mədəni ünsiyyət nümunəsi kimi diqqət çəkmişdir. Rəvayətlərə görə, Natəvan oyunda yazıçını məğlub etmiş və bu vəziyyət Dümanı heyrətləndirmişdir. Yazıçı Natəvanın zəkasını, incə davranışını və yüksək mədəniyyətini böyük rəğbətlə təsvir etmişdir. Bu görüş həm Azərbaycan qadınının XIX əsrdəki yüksək mədəni mövqeyini, həm də Qarabağ ədəbi mühitinin zənginliyini nümayiş etdirən maraqlı faktlardan biri hesab olunur.

*This is an open access article under the Creative Commons Attribution 4.0 International License* **ISSN 3078-6177**

## Qonaqpərvərlik və Etnoqrafik Müşahiələr

Düma öz qeydlərində Azərbaycan xalqının qonaqpərvərliyini xüsusilm vurqulayaraq yazmışdır:

> *“Azərbaycanda istənilən qapını döysəniz, əcnabi olduğunuzu və gəcələməyə yeriniz olmadığını dessəniz, ev sahibi dərhal sizə özünün ən böyük otağını verər, xanımı isə Azərbaycan mətbəxinin şahı olan ‘plov’ hazırlayır.” (Dumas, 1859, s. 89)*

Hətta o, əsərdə belə bir fakti da dilə gətirir:

> *“Mən Qafqazda olarkən Azərbaycan xalqında mükəmməl bir fakt gördüm. Belə ki, orada bir kəlmə söz Avropanın yüz hüquqi sənədindən daha etibararlıdır.” (Dumas, 1859, s. 204)*

Bu əsərdə Düma yalnız coğrafi təsviirlərlə kifayətlənməmiş, həm də bölgənin etnoqrafiyiası, mətbəxi, insanları və iqtisadıyyatı (neft çıxarılması və s.) barədə ətraflı məlumat vermişdir (Məmmədov, 1970). Onu bu səfərdə müşayiyət edən rəssam Jan Pyer Muane isə gördükləri yerlərin çoxsaylı illustrasiyialarını çəkmişdir ki, bu da əsəri daha vizual və qiymətli edir.

## Nəticə

Alexandre Dumasnın “Qafqaz” əsəri XIX əsr Azərbaycanının ictimai-mədəni həyatı, məişəti və etnoqrafik xüsusiyyətləri haqqında mühüm məlumatlar təqdim edən dəyərli mənbələrdən biridir. Yazıçının Azərbaycana səfəri zamanı apardığı müşahidələr yalnız səyyah təəssüratı xarakteri daşımır, eyni zamanda xalqın gündəlik həyatı, mərasimləri, adət-ənənələri və mənəvi dünyası haqqında obyektiv təsəvvür formalaşdırır. Əsərdə Azərbaycan bölgələrinə məxsus məişət və mərasim xüsusiyyətləri yerli-etnoqrafik səviyyədə diqqətə çatdırılmış, xalqın zəngin folklor irsi və qonaqpərvərlik ənənələri geniş şəkildə təsvir olunmuşdur (Arif, 1963).

Dümanın qeydləri göstərir ki, Azərbaycan xalqının mənəvi mədəniyyəti gündəlik həyatın bütün sahələrində özünü büruzə vermişdir. Müəllif xüsusilə insanların səmimiyyəti, qonağa hörmətlə yanaşması, ailə və məclis ənənələrinə bağlılığı kimi xüsusiyyətləri vurğulamışdır. Bu təsvirlər Azərbaycan xalqının milli-mədəni kimliyinin formalaşmasında folklorun və mərasimlərin mühüm rol oynadığını göstərir.

Əsərdə yazıçının azərbaycanlılar haqqında söylədiyi fikirlərdən biri xüsusilə diqqəti cəlb edir. Düma qeyd edirdi ki, “Azərbaycanlının (tatarın) imzasına ehtiyac yoxdur, onun bircə sözü kifayətdir” (Dumas, 1859, s. 156). Bu fikir müəllifin Azərbaycan xalqının sədaqətinə, mərdliyinə, dürüstlüyünə və sözünə bağlılığına böyük rəğbət bəslədiyini göstərir. Yazıçı xalqın cəsarətini və mənəvi bütövlüyünü yüksək qiymətləndirmiş, bu keyfiyyətləri Şərq insanının xarakterik xüsusiyyətləri kimi təqdim etmişdir.

Dümanın Qafqaz və Azərbaycan səfəri onun yaradıcılığında dərin iz buraxmışdır. Fransaya qayıtdıqdan sonra o, uzun müddət Qafqaz haqqında mühazirələr oxumuş, əsərlərində regionun təbiətindən, insanlarından və mədəniyyətindən bəhs etmişdir. Yazıçının Azərbaycanı “cənnəti xatırladan diyar” kimi təsvir etməsi onun bu bölgəyə duyduğu heyranlığın göstəricisidir. Buna görə də “Qafqaz” əsəri yalnız bədii-səfərnamə nümunəsi deyil, həm də Azərbaycanın XIX əsrdəki tarixi və mədəni simasını əks etdirən mühüm elmi və etnoqrafik mənbə kimi qiymətləndirilə bilər.

*This is an open access article under the Creative Commons Attribution 4.0 International License* **ISSN 3078-6177**

**Declarations**

**Ethical Approval:** This study is based on a review of published literary and historical sources. No human participants were involved. All sources are cited in accordance with academic ethical standards.

**Conflict of Interest:** The author declares no conflict of interest.

**Funding:** This research received no external funding and was conducted as part of the author's undergraduate studies at Nakhchivan State University, Azerbaijan.

**Data Availability:** All sources referenced in this article are publicly available.

**Author Contributions:** This study was solely conducted by the single author, who is responsible for research, analysis, and writing of the manuscript.

## References

Arif, M. (1963). *Azərbaycan-Fransız ədəbi əlaqələri*. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı.

Azərbaycan Milli Ensiklopediyası. (2018). "Düma Aleksandr (ata)" maddəsi. VIII cild. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi.

Dumas, A. (1859). *Le Caucase*. Librairie de L. Hachette et Cie.

Düma, A. (1985). *Qafqaz səfəri* (M. Əfəndiyev, Tərcüməçi). Yazıçı. (Yenidən nəşr: Qanun nəşriyyatı, 2021).

Hamlet Qoca. (2000). *Fransız ədəbiyyatı Antologiyası (XIX–XX əsrlər)*. "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyatı.

Məmmədov, P. (1970). *Aleksandr Düma Qafqazda*. Gənclik.

| | |
|---|---|
| ***Author*** | **Nigar Eyvazova**<br>2nd Year Student, French Language Teaching, Faculty of Foreign Languages<br>Nakhchivan State University, Azerbaijan<br>Email: eyvazova.1302@gmail.com<br>ORCID: https://orcid.org/0009-0008-8621-315X |

Received: 02.05.2026
Revised: 10.05.2026
Accepted: 18.05.2026
Published: 21.05.2026

*This is an open access article under the Creative Commons Attribution 4.0 International License* **ISSN 3078-6177**